## СЕЛЬСКИЕ (НАРОДНЫЕ) ШКОЛЫ ЗАНГЕЗУРСКОГО УЕЗДА (КОНЕЦ XIX ВЕКА-НАЧАЛО XX ВЕКА)

***Бахышова Рена Ризван кызы***

***Резюме***

Из-за малочисленности государственных школ, появившихся в Северном Азербайджане после его завоевания царизмом, сельское население оставалось в стороне от светского образования. В результате усилий интеллигенции в числе первых трех сельских школ на Южном Кавказе, открытых в 1876 году, была одноклассная нормальная сельская школа в селении Горус Зангезурского уезда. После этого количество сельских школ увеличилось. Из статьи наглядно усматривается, что среди уездов Гарабага наибольшее число сельских школ находилось в Зангезурском уезде.

***Rəyçi: tarix üzrə elmlər doktoru Nazim Rəhbər oğlu Məmmədov***

***AMEA A.Bakıxanov adına Tarix İnstitutunun "Qarabağ tarixi" şöbəsinin 01 iyul 2019-cu il tarixli iclasının 4 saylı protokolundan çıxarış***

***Daxil olduğu tarix 16 noyabr 2021-ci il***

**UOT:930.85**

## MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN TƏŞKİLİ VƏ FƏALİYYƏTİ

***Cabbarova Elnarə Oktay qızı***

***ADPU-nin Şəki filialı***

***El_cabbarova1980@mail.ru***

**Xülasə:** *XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın ictimai-siyasi, mədəni fikir həyatında cərəyan edən proseslər həmdə respublikamızda muzey işinin təşkilinə təkan vermiş, Respublikamızda geniş xalq kütləsinin istifadə edə biləcəyi, xalqımızın tarixini, mədəniyyətini əks etdirən maddi-mədəniyyət nümunələrini özündə cəmləşdirən, mühafizə edən, elmi-tədqiqat xarakteri daşıyan müxtəlif profilli muzeylərin yaradılması prosesinə başlanılmışdır.*

*Respublikamızda bütün muzeylərin yaranmasına təkan verən isə bizim milli sərvətimiz, qürur mənbəyimiz olan Milli Azərbaycan Tarixi muzeyidirki məhz bu məqalədədə bu muzeyin təşkili tarixi və fəaliyyətindən bəhs olunur.*

**Açar sözlər:** muzey, Azərbaycan tarix muzeyi, eksponat, ekspozisiya, kolleksiya, fond

**Ключевые слова:** музей, Исторический музей, экспонат, экспозиция,коллекция, фонд

**Key words:** museum, Historical museum, exposition, collection, fund

Muzeylər - tarixin müəyyən məqamlarını özündə yaşadan, ötən əsrlərin müxtəlif hadisələrindən xəbər verən, eksponatları kompleksləşdirən, qoruyan, saxlayan, öyrənən, nümayiş etdirən, maddi- mənəvi mədəniyyət, elm, maarif ocaqları mərkəzləridir .Burada saxlanılan hər bir eksponat xalqın çoxəsrlik tarixini, qədimliyini və minilliyini əks etdirir. Muzeylər funksiyasına görə hər bir xalqın milli-mənəvi sərvətidir, gənclərin vətənpərvərlik, beynəlmiləlçilik tərbiyəsində böyük əhəmiyyət kəsb edən bir mədəniyyət ocağıdır.

İnsan yarandığı gündən öz keçmişini dərk etməyə, onu layiqincə qiymətləndirməyə çalışıb. Keçmişimizə işıq tutmaqda, özümüzə və başqalarına, torpağımıza, ayrı-ayrı şəxsiyyətlərə, tariximizdə baş vermiş sosial-siyasi hadisələrə münasibətimizin formalaşmasında muzeylərin rolu əvəzsizdir.

Möhtərəm mərhum prezidentimiz Heydər Əliyevin təbirincə desək muzeylərin mənası, əhəmiyyəti hər bir xalqın o cümlədəndə Azərbaycan xalqının tarixini təbliğ və əks etdirməkdən,mədəniyyətimizin səviyyəsini göstərməkdən ibarətdir..

Bu baxımdanda Azərbaycanda muzey işinin inkişafında, muzeylərin yaradılmasında əvəzolunmaz rol oynayan Azərbaycan muzeylərinin anası hesab olunan “Milli Azərbaycan Tarix Muzeyinin təşkili və fəaliyyəti adlı “mövzunun öyrənilməsi və işlənilməsi xüsusi aktuallıq kəsb edir. Beləki məhz Milli Azərbaycan Tarix muzeyinin yaradılmasından sonra Azərbaycanda muzey işi yüksələn xətlə inkişaf etməyə başlamış respublikamızın butun yerlərində müxtəlif profilli muzeylərin yaradılması prosesinə başlanılmışdır.Buna görədə bu mövzunu işləməkdə məqsəd muzey işi tariximizi bir daha işiqlandırmaq,bu muzeyin varlığıynan xalqımızın necə böyük milli sərvətə sahib olduğunu, ictimaiyyətimizə bir daha bildirməkdən ibarətir.

XX əsrin əvvəllərinə qədər Azərbaycanda geniş xalq kütləsinin istifadə edə biləcəyi, xalqımızın tarixini, mədəniyyətini əks etdirən maddi-mədəniyyət nümunələrini özündə cəmləşdirən, mühafizə edən, elmi-tədqiqat xarakteri daşıyan muzeylərin yaradılması sahəsində əməli fəaliyyətə başlanılmamışdı.

Azərbaycan xalqının qədim tarixə malik mədəni irsi, onun keçmişinin maddi-mədəniyyəti ayrı- ayrı şəxslərin kolleksiyalarında topladığından, bu abidə nümunələri geniş xalq kütləsi üçün qaranlıq qalırdı, tədqiqatçı-alimlərimiz tərəfindən araşdırılmırdı, müxtəlif eksponat və əşyaların yaranma tarixi, məqsədi bəlli deyildi, tədqiq edilmirdi. İlk Azərbaycan ölkəşünaslarından görkəmli alim, yazıçı və ictimai xadimlərimiz Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Əhməd bəy Cavanşir, Mirzə Adıgözəl bəy. Rəşid bəy Əfəndiyev, Cəlil Məmmədquluzadə və başqaları bu sahədə səy göstərirdilər. XX əsrin əvvəllərində xalqımızın zəngin mədəni irsinin nümunələri Qafqaz canişinin Tbilisidəki Muzeyində toplanıldı, həmin kolleksiyalar «İran» və «Türkiyə» mədəniyyəti nümunələri kimi qələmə verilirdi.(1,səh217)

Bəzi sənədlərə əsasən Şamaxıda, Bakıda ayrı-ayrı şəxslər topladıqları maddi-mədəniyyət nümunələrini bəzi hallarda nümayiş etdirirdilər ki, bütün bunlarda elmi xarakter daşımırdı.(2,səh 23) Həmçinin XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar zamanı üzə çıxarılmış qiymətli maddi-mədəniyyət nümunələrinin bir hissəsi əcnəbi arxeoloqlar tərəfindən ayrı-ayrı ölkələrin muzeylərinə verilərək bu ölkələrin muzeylərinin fondlarını zənginləşdirmiş, şəxsi kolleksiyaların bəzəyinə çevrilmişdir. Əlbətdə bu nümunələrin ölkədən aparılmasının, itməsinin əsas səbəblərindən biri də burada onları toplayan və qoruyan mərkəzi muzeyin olmaması ilə bağlı olmuşdur.

Azərbaycanda muzeylərin yaradılmasının əsas təşəbbüsçüləri müəllimlər və ayrı-ayrı ziyalılar olmuşdur.Yuxarida qeyd olunduğu kimi xalqımızın görkəmli maarifpərvər ziyalıları Azərbaycanın tarixinə,mədəniyyətinə dair arxeoloji, etnoqrafik, numizmatik materialları toplayıb səliqəyə salır, məktəblərdə, kitabxanalarda kiçik muzeylər yaradırdılar.(3, səh 415)

1918-ci il 24 sentyabrda SSRİ Xalq Komissarlığı tərəfindən verilən dekretdən sonra Azərbaycanda muzeylərin yaradılması sahəsində müsbət əhəmiyyət kəsb edən dəyişikliklər baş vermişdir. (4,səh.2)

Beləki, Respublikamızda ilk rəsmi dövlət muzeyi –“istiqlal” muzeyi yaradılmışdır. Bu muzey Xalq Cumhuriyyəti dövründə təşkil olunmuşdurki buda xalqımızın mədəniyyət tarixində kox mühüm hadisə idi.(5,səh 83)

İstiqlal muzeyi 1919-cu il dekabrın 7-də Azərbaycan parlamentinin yaradılmasının ildönümü münasibətilə Parlamentin binasında açılmış, 1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ləğv edilmişdir. Lakin yeni muzeylərin təşkilində mühüm rol oynamışdır. (6,səh 40)

Belə ki, 1920-ci ilin iyununda Y.N.Staneviçin başçılığı altında Bakıda bir qrup müəllimin iştirakı ilə diyarşünas pedaqoqlarının dərnəyi yaradılmışdır. (7, səh 3) Bu dərnəyin qarşısına muzey və ekskursiyalar, habelə diyarşünaslıq laboratoriyaları təşkil etmək vəzifəsi qoyulmuşdu.

Y.N.Staneviçin rəhbərlik etdiyi Diyarşünaslıq dərnəyi həmin il iyunun 15-də Muzey-ekskursiya şöbəsi adı ilə Xalq Maarif Komissarlığının tərkibinə daxil edildi.(8,səh 9) Şöbənin

ilk yığıncağında tədris xarakterli muzeyin təşkil olunması qərara alındı və bu muzey «Doğma diyarın tədris muzeyi» adlandırıldı. 1920-ci ilin iyulunda İstiqlal muzeyinin, habelə Pedaqoji muzeyin və bəzi məktəblərdə fəaliyyət göstərmiş diyarşünaslıq kabinetlərinin əşyaları bu muzeyə verildi. Təşkili dövründə məlum oldu ki, bu muzey yalnız tədris çərçivəsində məhdudlaşa bilməz.Buna görədə 1920-ci ilin oktyabrında muzey «Azərbaycan Dövlət Muzeyi» adlandırıldı..Muzey-ekskursiya şöbəsinin, habelə onun nəzdində ayrı-ayrı komissiyaların yaradılmasında, nəhayət, şöbənin Azərbaycan Dövlət Muzeyinə çevrilməsində İstiqlal muzeyinin yaradıcıları Məhəmməd Ağayev və Hüseyn Mirzəcamalov yaxından iştirak etmişlər.(9,səh 10)

Məşhur neft sahibkarı və xeyriyyəçi Hacı Zeynəlabdin Tağıyevin yaşayış mülkündə yerləşdirilmiş Milli Azərbaycan Tarixi Muzeyi - tariximizin bütün dövrlərinə aid maddi və mənəvi mədəniyyət abidələrinin toplanılması, öyrənilməsi, nümayişi və təbliği ilə məşğul olan elmi tədqiqat və mədəni-maarif müəssisəsidir.

Tarix muzeyi təşkil olan andan etibarən əsas vəzifəsi -əhalimizi maarifləndirmək, mədəniyyətimizi, elmi biliklərimizi təbliğ etməklə yanaşı, qədim Azərbaycan ərazilərinin inkişaf yolunu əks etdirən azəri türklərinin bu torpaqlarda məskunlaşma tarixinin salnaməsini sənədlərlə, arxeoloji ekspedisiyalarda aşkar edilmiş faktiki materiallarla, eksponatlarla təsdiq etməkdir. Muzey türk dünyasının qürur mənbəyidir. Keçən əsrin 20-ci illərində, respublikada muzey işi öz inkişaf mərhələsinə qədəm qoyduğu andan, Azərbaycan əhalisinin əksəriyyətinin savadsız olduğu bir dövrdə muzey əməkdaşlarının qarşısında ümumtəhsil məsələləri öndə dururdu. Bu dövrdə Azərbaycan Dövlət Muzeyinin əməkdaşları dövlət idarələrində, müəssisələrdə, fəhlə klublarında, kənd icmalarında məruzələrlə çıxış edir, müntəzəm surətdə lektoriyalar təşkil edirdilər. Muzeyin əməkdaşları Azərbaycan tarixinə aid dərs vəsaitləri tərtib edirdilər. Y.A.Paxomovun 1925-ci ildə çapdan çıxmış “Azərbaycan tarixinin qısa oçerki” əsəri bu fəaliyyətin parlaq nümunəsi sayıla bilər.

Muzeyin yaradılması respublikanın rayonlarında diyarşünaslıq işinin təşkilində mühüm rol oynamışdır. Muzey əməkdaşlarının bilavasitə köməyi ilə mədəniyyət ocaqları funksiyalarını yerinə yetirən tarix-diyarşünaslıq müəssisələrinin fəaliyyəti tənzimlənmişdir. Lakin muzeyin əsas vəzifəsi, xüsusən onun fəaliyyətinin ilk dövründə Azərbaycan tarixinin müxtəlif dövrlərinə aid materiallar toplamaqdan ibarət idi. Yeni əldə edilmiş eksponatlar əsasında muzeyin ilk ekspozisiyası yaradılır, sərgilər təşkil edilirdi. Muzeylər təşkil edildikdən sonra eksponatların toplanması işində Azərbaycan əhalisinin böyük rolu danılmazdır.

Yarandığı ilk illərdə muzeydə tarix, arxeologiya və etnoqrafiya, botanika və zoologiya, mineralogiya və geologiya, təsviri incəsənət və bədii sənət, xalq təhsili, köməkçi tədris müəssisələri şöbələri, eləcə də Azərbaycan Doğma Diyarın Tədqiqi Cəmiyyəti və Qədim abidələrin mühafizəsi komissiyası fəaliyyət göstərirdi.

1921-ci ildən Azərbaycan Dövlət Muzeyi, 1937-ci ildən SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının, 1945-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının tərkibində Azərbaycan Tarixi Muzeyi kimi fəaliyyət göstərib.2005-ci ildə muzeyə indiki status Milli Azərbaycan Tarixi Muzeyi adı verilib.

XX əsrin 20-ci illərində sırf pedaqoji şöbələr tədricən muzeydən ayrılmağa başladı, qədim abidələrin mühafizəsi üzrə komissiya isə 1923-cü ildə Azərbaycan Arxeologiya Komitəsi kimi fəaliyyətini davam etdirməyə başladı. Beləliklə, muzey tədricən özünün elmi maarifçilik fəaliyyətinin əhatə dairəsini konkretləşdirdi. 1924-cü ilə qədər muzeyin formalaşması artıq başa çatmışdı. 1924-cü ildə muzey kitabxanasının yenidən təşkil edildi. 1927-ci ildən isə “muzeyin materialları” artıq dərc edilirdi. Tarix Muzeyi 4 şöbədən ibarət idi və bu şöbələrdə öz növbəsində yarımşöbələrə bölünürdü:

1) Təbiət-tarix şöbəsi və onun dörd yarım şöbəsi: geologiya, zoologiya, botanika və etomologiya

2) Tarix şöbəsi və onun 3 yarımşöbəsi: tarix, arxeologiya, etnoqrafiya

3) Rəssamlıq şöbəsi və onun 2yarımşöbəsi: Şərq və Qərb incəsənəti

4) Ədəbi teatr şöbəsi

Təşkil olunan bu şöbələrdə adlarına uyğun olaraq eksponatlar toplanmış və nümayiş etdirilmişdir.

1933-cü ildə Tarix Muzeyi özünün əsas vəzifəsinə müvafiq olaraq aşağıdakı tədbirləri həyata keçirirdi:

a)Azərbaycan tarixinin bütün dövrlərinə aid eksponatların, əlyazmaların elmi əhəmiyyətini tamamlayan sənədlərin toplanması;

b) yerli millətlərdən muzeyşünas elmi işçi kadrlarının hazırlanması üçün kurs və seminarların təşkil edilməsi;

Azərbaycan tarixinə dair materiallar sərgisi o dövrdə biliklərin səviyyəsini əks etdirməklə aşağıdakı bölmələrdən ibarət idi:

Arxeologiya bölməsi-Xocalı-Gədəbəy, Qızılvəng, Yaloylu təpə mədəniyyəti, küp qəbirləri və orta əsrAzərbaycan şəhər ərazilərinin materialları

Tarix bölməsi- əsasən XVIII –XIX əsrlər tarixinə aid sənədlər, Azərbaycan, Dağıstan silahları və muzeyin numizmatika kolleksiyası

Etnoqrafiya bölməsi-burada azərbaycanlıların məişət əşyaları, habelə Azərbaycan tikmələrindən (ipək, güləbətin, muncuq)kolleksiyaları, Lahıc ustalarının əl işləri olan mis qablar kifayət qədər geniş təmsil olunmuşdu.

Şirvanşahlar sarayının tarixinə, orda aparılmış təmir-bərpa işlərinə həsr edilmiş bölmə

Azərbaycan tarixi Muzeyi ildən ildən fəaliyyətini zənginləşdirmiş inkişaf tempində yüksələn xətlə getmişdir.

1950-ci ildə Azərbaycan Tarixi Muzeyi əsas fəaliyyətini _Azərbaycanın və onun maddi mədəniyyətinin (arxeologiya, etnoqrafiya) öyrənilməsi, tarixi sənədlər, ev müxəlləfatı əşyaları, əmək alətləri, silahlar, xalqımızın maddi –mədəniyyətinə aid ekspedisiyalar, arxeoloji qazıntılar nəticəsində əldə edilmiş, eləcədə əhalidən alınmış digər eksponatlar əsasında tematik sərgilər üzrə mədəni-maarif işlərinin aparılmasına yönəltmişdir.

60-cı illərdən başlayaraq muzey bilavasitə arxeoloji ekspedisiyalar təşkil etməsə də, yeni bir sahənin - sualtı arxeoloji tədqiqatların mərkəzinə çevrildi. 1968-72-ci illərdə Muzeyin əməkdaşı tarixçi-arxeoloq Viktor Kvaçidzenin başçılıq etdiyi qəvvaslar qrupu Xəzər dənizində və sahilyanı ərazidə (Bəndovan I, Bəndovan II, Bilgəh və s.) tədqiqat işləri aparmış, bu gün ekspozisiyada görkəmli yer tutan sualtı arxeoloji materialı aşkar etmiş, su altında qalmış orta əsr yaşayış yerlərinin (Muğan, Quştaşfi) tapılması və öyrənilməsi işinin əsasını qoymuşlar.

Muzeyin zəngin kolleksiyasını müxtəlif illərdə nəşr edilmiş buklet, kataloq, albom və məqalələrin əsasını təşkil etmişdir. Muzey tərəfindən nəfis şəkildə nəşr edilmiş “Milli geyimlər”, “Zərgərlik bəzəkləri”, “Şərq silahları”, “Mis məmulatı”, “Xalçalar və xalça məmulatı”, “Azərbaycan tikmələri”, “Arxeoloji material”, “Numizmatika”, “Sualtı arxeologiya” adlı kitablar yüksək rəğbətlə qarşılanmışdı. 1966-cı ildə “Azərbaycanda aparılan arxeoloji qazıntılardan əldə edilmiş qızıl və gümüş əşyaların kataloqu” və 1972-ci ildə “Azərbaycanın qədim bəzəkləri” albomunun nəşri də tarixsevərlər arasında böyük marağa səbəb olmuşdu. 1970-80-ci illərdə “Eksponatlar danışır” adı ilə ən yeni tariximizə dair orijinal və nadir eksponatların təsviri və onlar haqqında məlumat verən iki cildlik kitab çapdan çıxmışdır.Muzeyin fondlarında saxlanılan bir çox materialı əks etdirən, Azərbaycan tarixşünaslığında ilk dəfə dövlətçilik rəmzlərimizi özündə birləşdirən orijinal “Azərbaycanda dövlətçilik və onun rəmzləri” kitab-albomu 2000-ci ildə işıq üzü görmüşdür.

1980-cı il yanvarın 4-də Azərbaycan Respublikasının rəhbər təşkilatının “muzey işinə aid” qərarından sonra respublikamızda muzey işi növbəti inkişaf yoluna qədəm qoyur.( 10,səh 28) Qərarda respublikamızın bütün rayonlarında tarix-diyarşünaslıq muzeylərinin

yaradılması əsas vəzifə kimi qarşıya məqsəd qoyulmuşdur. Bu qərara uyğun olaraq muzeylərə rəhbərlik işini təkmilləşdirmək, metodiki və praktiki köməyin səmərəsini artırmaq, ekspozisiyanın estetik səviyyəsini yüksəltmək və muzey sərvətlərinin uzun ömürlülüyünü təmin etmək üçün Respublika Mədəniyyət Nazirliyi aparatında muzeylər idarəsi, habelə muzey işi üzrə Respublika Elmi- Metodiki Mərkəzi, muzeylərin bədii tərtibatı üzrə muzey sərvətləri və xatirə əşyalarının elmi bərpa mərkəzləri yaradılmışdır. Qərardan sonra demək olar ki, respublikamızın bütün rayonlarında tarix-diyarşünaslıq muzeyləri təşkil edilir. Əgər 70-ci illərdə rayonlarımızda 16 tarix-diyarşünaslıq muzeylərimiz var idisə 1980-cı ildə onların sayı 24-ə, 1985-ci ildə isə 63-ə çatmışdı.

Milli Azərbaycan Tarix Muzeyi yaranan gündən bugünədək olan fəaliyyətində o qədər böyük işlər görmüşdürki muzey işi tariximizdə ozünəməxsus elə bir yeri olmuşdurki,bu barədə nə qədər müsbət fikir söylənsədə azdır.Bu muzey bizim fəxrimiz, mənəvi daş –qaşlar xəzinəmizdə ən qiymətli incimizdir.

Milli-mədəni sərvətlərimizin qorunub gələcək nəsillərə çatdırılması sahəsində muzeylərin rolunu layiqincə qiymətləndirən və yeni-yeni muzeylərin yaradılmasının təşəbbüskarı olan dahi şəxsiyyət Heydər Əliyev demişdir: **“Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır”.**

Ulu öndərin bütün dövrlərdə öz aktuallığını qoruyub saxlayan bu tövsiyələri bütün bölgələrdə uğurla həyata keçirilmiş və keçirilməkdədir.

Həmdə bugün prezidentimiz cənab İlham Əliyev tərəfindəndə bütün muzeylərə o cümlədəndə Milli Azərbaycan Tarixi Muzeyinə xüsusi diqqət yetirilir.Beləki, 2004-2007-ci illərdə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin göstərişi və nəzarəti ilə muzeyin binası əvvəlki görkəmini saxlamaqla müasir muzey tələbləri səviyyəsində bərpa və təmir olundu. Muzeyin yeni avadanlıqla təchiz olunması, prezidentin və hökumətin ayırdığı investisiya ilə nadir muzey ekponatlarının bir hissəsinin bərpa və konservasiya edilməsi və bunun nəticəsində tariximizin bütün dövrlərinin daha dolğun təqdim olunması indi olduğu kimi bundan sonra da muzeyi ölkənin tarixi-mədəni irsinin qoruyucusu edəcəkdir. Muzeyin 10 otağında Azərbaycan xalqının görkəmli oğlu Hacı Zeynalabdin Tağıyevin ev-muzeyinin açılması vətəninə və xalqına hədsiz xidmətlər göstərmiş “el atası”nın xatirəsini əbədiləşdirmiş, onun görk olacaq həyat və fəaliyyətini işıqlandırmışdır. 2007-ci ildə öz qapılarını yeni ekspozisiya ilə tamaşaçıların üzünə açan muzey Azərbaycan tarixinin daha ətraflı və obyektiv təqdim olunması məqsədilə elmi tədqiqat və mədəni-maarif işlərini bir qədər də genişləndirmiş, fəaliyyətini elmin inkişafı üzrə Milli Strategiyaya uyğun qurmuşdur. Açılışdan sonra muzeydə keçirilən müxtəlif mövzulu sərgilər, elmi-praktiki seminar və konfranslar, muzey əməkdaşlarının hazırladıqları kitab, buklet, kataloq və toplular həm mütəxəssislərin, həm də Azərbaycanın tarixi, onun maddi və mənəvi mədəniyyəti ilə maraqlananların rəğbətinə səbəb olmuşdur.

Muzeydə hal-hazırda altı şöbə (Azərbaycanın qədim və orta əsrlər dövrü tarixinin ekspozisiyası, Azərbaycanın yeni dövr tarixinin ekspozisiyası, Azərbaycanın ən yeni dövr tarixinin ekspozisiyası, Etnoqrafiya, Numizmatika və Epiqrafika, Elmi-ekskursiya və kütləvi işlər şöbələri), Muzey əşyalarının bərpası laboratoriyası, 12 fond, 4 qrup və kitabxana fəaliyyət göstərir. Azərbaycan Tarixi Muzeyində ekspozisiya, elmi-tədqiqat, elmi-kütləvi və fond işlərinin əsas istiqamətlərini tarix elminin son illərdə əldə etmiş olduğu nailiyyətlərə və muzeyşünaslığın dünya təcrübəsi ilə təsdiq olunan müasir prinsiplərinə əsaslanaraq ekspozisiyasının qurulması, onun daim zənginləşdirilərək təkmilləşdirilməsi, Azərbaycan xalqının qədim dövrdən bu günədək tarixini əks etdirən maddi və mənəvi mədəniyyət abidələrinin toplanması və mühafizəsi, tədqiqi, nəşri, onların ekspozisiya və sərgilərdə nümayişi və təbliği təşkil etmişdir.

Nəticə etibarilə 1 daha qeyd edəkki Azərbaycan Milli Tarixi Muzeyi özünün elmi əhəmiyyətinə, həmçinin ekspozisiyalarının zənginliyinə görə hazırda respublikanın ən iri muzey lərindən biridir. Onun fondlarında üç yüz minə yaxın eksponat (saxlama vahidləri) qorunub saxlanılır. Bunlar milli tariximizin, xalqımızın mədəniyyətinin inciləridir. Muzey özünün Şərq sikkə kolleksiyası ilə haqlı olaraq fəxr edir. Bu kolleksiya keçmiş SSRİ-də Ermitajdan sonra ikinci yeri tuturdu. Habelə nadir kitablar kolleksiyası respublikamızın hüdudlarından kənarda çox məşhurdur. Muzeyin materialları Əlcəzair, Fransa, Hollandiya, Yaponiya, Almaniya, Norveç və başqa ölkələrin beynəlxalq sərgilərində yüksək səviyyədə nümayiş etdirilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyi respublikada daha çox tamaşaçı cəlb edən muzey olmaqla yanaşı, onlarda öz tarixinə maraq doğuran muzeylər sırasındadır. Bura məktəblilər, tələbələr, turistlərlə yanaşı, siyasətçilər, ictimai xadimlər, alimlər, mədəniyyət və incəsənət işçiləri təşrif buyururlar. Azərbaycan xalqının maddi, mənəvi mədəniyyətini əks etdirən ekspozisiya haqqında onların təəssüratları muzeyə gələnlərin rəy kitabında öz əksini tapmışdır.

2016-cı ildən etibarən muzeydə həmdə Azərbaycan Xalq Cümhuriyyəti bölməsi fəaliyyət göstərir.

Beləliklə mövzu üzərində işlədikdən sonra bir daha o nəticəyə gəlirikki dünya mədəniyyəti xəzinəsinə gözəl nümunələr bəxş edən Azərbaycan xalqı qədim və zəngin mədəniyyətə şanlı bir keçmişə malikdir. Xalqımızın həm ulu keçmişini həmdə bugününü özündə yaşadan, bu tarixi yolu əks etdirən eksponat və materialların toplandığı ünvanlardan biri də Milli Azərbaycan Tarixi Muzeyidir.Bu muzeyin yaradıldığı andan etibarən bugünə kimi keçdiyi inkişaf yolunu, fəaliyyətini öyrənmək bilmək və bu muzeyi qoruyub saxlamaq və gələcək nəsillərə çatdrmaq hər birimizin vətəndaşlıq borcudur. Çünki Milli Azərbaycan Tarixi Muzeyi -bizim milli sərvətimiz,qürur mənbəyimizdir.

***Ədəbiyyat***

1.S.A.Əmirxanov, İ.H.Hüseynov “Dünya Muzeyləri və Tarixi Mədəniyyət Abidələri”. Bakı 2008.

2. M.A.Казиев «Из истории музейного дела в Азербайджане». Изв. А.Н. Аз.ССР Сон.1960.№2

3. Azərbaycan Sovet Ensiklopediyası VII cild.

4. “Известия ВЦИК” № 207,24.09.1918

5.Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası-I cild.Bakı 2004

6.Adilxan Bayramov “Sənət-Sənət məbədləri-Sənət fədailəri” Bakı 2015

7. Е.А.Пахомов «Монетная коллекция АЗ.Гос.Музея» Т-1,68.Изд.АЗ. Гос.Музея Баку 1928.

8. Zemfira Hacıyeva “Azərbaycan Dövlət Muzey”.Bakı. Şərq-Qərb” Nəşriyyat evi 2012.səh.9

9. Adilxan Bayramov “Tariximiz, Yaddaşımız, Sərvətimiz”.Bakı 2007

10. ”Mədəni – maarif işi jurnalı” № 2.Bakı 1985.səh 28

## ОРГАНИЗАЦИЯ И ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКОГО НАЦИОНАЛЬНОГО ИСТОРИЧЕСКОГО МУЗЕЯ

***Джаббарова Эльнара Октай кызы***

***Резюме***

В статье повествуется об организации и деятельности Азербайджанского Национального Исторического Музея. Развитие и изучение этой темы оченъ важно для более глубокого изучения истории нашего музейного дела.

## ESTABLISHMENT AND ACTIVITY OF NATIONAL AZERBAIJAN HISTORICAL MUSEUM

***Jabbarova Elnara Oktay***

***Sumary***

The article is about the establishment and activity of National Azerbaijan Historical Museum which this work is important to learn the work on museum history more deeply.

***Rəyçi: t.ü.f.d. Vüsal Baxışov***
***14 sentyabr 2021-ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olma tarixi 22 sentyabr 2021-ci il***

**UOT:902.**

## GƏNCƏDƏ ƏNƏNƏVİ SƏNƏTKARLIQ VƏ MEMARLIQ ÜSLUBLARININ TƏDQİQİNDƏ SƏBZİKAR ABİDƏSİNİN ƏHƏMİYYƏTİ

***Həsənov Elnur Lətif oğlu***
***Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi***
**lnurh273@gmail.com**

**Xülasə:** *Tədqiqat işində Gəncə şəhərinin qədim ənənələrə malik olan yerli sənətkarlıq və memarlıq növlərinin tarixi-etnoqrafik cəhətdən tədqiqində Səbzikar qəbiristanlığının mənbə kimi əhəmiyyəti araşdırılmışdır. Məqalədə çoxsaylı elmi mənbələr, tarixi məxəzlər, arxiv sənədləri əsasında son orta əsrlər dövründə bu qədim şəhərdə daşişləmə və daşyonma, dulusçuluq, həkkaklıq kimi ənənəvi sənətkarlıq sahələrinin, inşaat işinin, həmçinin yerli memarlıq üslublarının səciyyəvi xüsusiyyətlərinin öyrənilməsində qədim qəbirlərin, məzarüstü abidələrin tədqiqinin dəyəri üzə çıxarılmışdır.*

***"Usta olmayanda çətin gedər iş,***
***Ustanı tap, sonra bir işə giriş".***
***Nizami Gəncəvi***

**Açar sözlər:** Azərbaycan, ənənəvi memarlıq, Gəncə, sənətkarlıq, tarixi-etnoqrafik tədqiqat, Səbzikar məzarlığı.

**Ключевые слова:** Азербайджан, традиционная архитектура, Гянджа, ремесло, историко-этнографическое исследование, кладбище Себзикар.

**Key words:** Azerbaijan, traditional architecture, Ganja, craftsmanship, historical-ethnographic research, Sebzikar grave-yard.

***Giriş***

Gəncə Səbzikar abidəsinin nümunəsində məhz yerli ənənələr əsasında təşəkkül tapmış və tədrici inkişaf sayəsində ümumdünya və eyni zamanda ümumislam mədəniyyətinin zənginləşməsində Gəncənin, ümumiyyətlə Azərbaycan xalqının çox yüksək, müstəsna rolunu aşağıdakı mühüm müddəalarla təsbit etmək və ilk dəfə elmi ictimaiyyətə çatdırmaq mümkündür:

Belə ki, Səbzikar qəbiristanlığında günümüzədək qorunub saxlanılmış və inşa edilmə tarixi XVIII-XIX əsrlərə təsadüf edən qüləvari formalı günbəzə sahib türbələrin tikilmə üslubu, inşaat keramikasının zərgər dəqiqliyi ilə tətbiq olunması. Bəhs olunan sənətkarlıq və memarlıq üsulunun geniş şəkildə istifadə edilməsi ilk orta əsrlər mərhələsi, xüsusilə də IX-XII əsrlərdə yüksək intişar tapmışdır. Amma Gəncə üçün səciyyəvi hesab olunan kərpiclə inşa üslubu daha qədim tarixi mərhələlərə aid maddi tapıntılarda üzə çıxarılmışdır [1, s. 87-89].

Yüzilliklər ərzində Gəncə üçün səciyyəvi sənətkarlıq və eyni zamanda memarlıq ənənəsi kimi dəyərləndirilən məşhur "Qızıl kəsişmə" kərpic inşası Səbzikar tarixi-memarlıq